

■ Xəyalə Sevil



# Sonuncu axşamdan yazıram sənə, Bütün gecələrin xeyrə qalsın

## MƏN DƏ UNUDA BİLİRƏM

Üzüm
Əllərimdə gizlənir indi.
Barmaqlarım arasından
Gecə düşür üzümə,
Uzağam gündən belə.
Məni kim inandıracaq?
Necə inandıracaq?
Sevgiyə indən belə.

Getdi,
Olan-qalan nə varsa, getdi.
Bir payız dolusu
Xəzəlim qaldı.
Başımı qoymağa
Öz çiyinlərim,
Bir də ki, öz dizim,
Öz əlim qaldı.

Yaylıq əllərimlə
Yaş yanağımı
Silib quruda bilirəm.
Dedim, inanmadın, amma,
Görürsənmi?
Mən də unuda bilirəm.

## SƏN MƏNİM XƏYAL YOLDAŞIM

Əvvəl saçlarımı kəsdirdim,
Sonra qollarımı tulladım
Yanımdakı boşluğa.
Mən alışdım təkliyə,
Sən alışdın sərxoşluğa.

İçimə atdım səsimi,
İçimdə qulaq batır.
İndi gücüm nə ölməyə,
Nə də yaşamağa çatır.

Sən mənim xəyal yoldaşım,
Ayrılığın adını qoy.
Həyatına sevmədiyin qadını qoy.
Ağla,
Gözlərin boşalsın.
Sonuncu axşamdan yazıram sənə,
Bütün gecələrin xeyrə qalsın.

## SƏN ONDA MƏNİ SEVİRDİN

Sən onda məni sevirdin,
İndi... bilmirəm daha.
Xəyallardan qayıdıram,
Səni... səni unutmağa.

Sevgi məndən ötüb keçən
Gözəl-göyçək xatirədi.
Dünyadakı ən tək adam
Mənəmsə... sənə görədi.

Nə yer yiyə durar mənə,
Nə də göy anlamaz artıq.
Könlümün xarabasında
Bayquş da ulamaz artıq.

## TANRIM, SƏN DƏ GÜNAHKARSAN

Tanrım, sən də günahkarsan,
Orda, o susduğun yerdə.
Başqasının taleyini
Alnıma yazdığın yerdə.

Tanrım, sən də günahkarsan,
Qaçıb gizlənmisən göyə.
Əllərimi danlayıram,
Dizlərimə döyə-döyə.

Çatıbdımı ahım sənə?
Geyin, özünə qismət.
Yerdə yerlə sürünürəm,
Göyün özünə qismət.

## ÜRƏYİMƏ İŞIQ DÜŞMÜR

Ürəyimə işıq düşmür,
Pəncərəni kim bağladı?
Yox, mən ağlağan deyiləm,
Gözlərimdə kim ağladı?
Göy üzündə
Boş yer yoxdu
Ulduzların əlindən.
Səsim sənə çatmır, Allah.
Yerindən, göyündən küsüb
Duam,
Dilimə yatmır, Allah.
Ayaq üstə öldürmə,
Öldürürsən, yıx məni.
Üstümə bir ölüm gəl,
Bu dünyadan çıx məni.

## SƏN MƏNİ DÜŞÜNMƏ

Sən məni düşünmə,
Mən uzaqbaşı
Hər şeyə bir dodaq
Susub gedərəm.
Kimsəsiz uşaqdı
Ömür dediyin,
Başını birtəhər
Yozub gedərəm.
Üzü yoxuşa dur,
Enişlər mənim olsun.
Ömründən bir tərəfli
Gedişlər mənim olsun.
Mən axı bilirdim bu məhəbbətin
Altından qəm çıxacaq.
Sənin həsrətin də islanlıb daha,
Gözümdən nəm çıxacaq.
"Alın yazısı" de, "tale, qismət" de,
Könlünü bir təzə eşqlə adaxla.
Məni gözlərindən,
Ürəyindən sil.
Bircə xatirəndə
Xəyalə saxla.

## İLAHİ

İlahi, adamların
Niyə belə dəyişib?
Özün yaratdığını
Tanıya bilirsənmi?...

Gözlərimdə bulud yükü,
İlahi, bu əynimdəki
Üzü bəzək dünyamızı
Çıxarmağa gəlirsənmi?

Yer üzü canından bezib,
Özünü qara daş kimi
Göyə atmaq istəyir.
Ağaclar torpağın əlidi, bəlkə,
Dua kimi açılıb,
Sənə çatmaq istəyir.

İlahi, bir bulud baxır üzümə,
İlahi, bir yol yeriyir üstümə.
Külək dolur pəncərədən içəri,
Yağış yağır, yağış yağır.
Ölür bütün arzularım, xəyallarım,
Təkcə əllərim diri.
İlahi, sənə baxır,
İlahi, məni çağır.

## GÖZLƏRİM VİTRİN

Susuram, gözüm səs edir,
Duyan yox.
Mən ona həsrət deyiləm,
Suyam, yox!

İndi qaranlıq gecədə
Gecə lampasıdı ümidlərim.
Gücü çatmır...
Yaşamağa savabı,
Ölməyə suçu çatmır.

Gözlərim vitrin,
Bir az xəyal qırıqlığı,
Bir az təklik
Və yorğunluq.
... Gözlərimin üzü qara.
İlahi, sən də at məni,
At məni yer üzünə,
Öyrəşim insanla.

## PƏNCƏRƏDƏN BOYLANIRAM

Pəncərədən boylanıram,
Ay güzgümdə aylanıram.
Yer üzü qadın qapısı,
Gecə yarı döymək olmur.
Göy üzü yadın qapısı,
Dəymək olmur,
Dəymək olmur...

Həmin yol, həmin küçədi,
Qarayanız bir gecədi.
Bu azalan adamların arasında
Bir sən yoxsan,
Bir mən yoxam.
İki oldu bu yoxluq.
Böyüdü, boyumdan da
Yekə oldu bu yoxluq.
Heç kim ilə bölünməyən
Tikə oldu bu yoxluq.
Ömrümdən sənsiz illərim
Meyvə kimi dəyib düşür,
Gözlərimi döyüb düşür.
Və beləcə...
Və beləcə
Ölüm məndən duyuq düşür.
Torpağın qara canına
Mənim boyda oyuq düşür.

## ASARAM ÖZÜMÜ GÖYÜN ÜZÜNDƏN...

Buludların ac it kimi
Elə hürür ki, üstümə, ilahi,
Məni yağışın tutacaq.
Qapından qayıdır dualarım da,
Məni qarğışın tutacaq.
Ömrüm il-il tökülür,
Daşlayıblar ömrümü.
Bir ulduzsuz gecəyəm,
Bir kimsəsiz küçəyəm.
Bu dəlisov yağışlar
Xoşlayıblar ömrümü.
Eh! Daha əlimi açmaram sənə,
Eh! Daha əllərim qoynumda qalar.
Asaram özümü göyün üzündən,
İlahi, ölümüm boynunda qalar.